**Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"ni "Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 250 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 iyun tarixli 452 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 10.4-1-ci, 10.4-2-ci, 10.13-1-ci - 10.13-3-cü bəndlər əlavə edilsin:

"10.4-1. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazələrin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;

10.4-2. Azərbaycan Respublikasının ərazisində əcnəbi işçi qüvvəsini cəlb etmək və ondan istifadə etmək üçün icazə verilmiş hüquqi və fiziki şəxslər barədə məlumatların Sistemə daxil edilməsi;";

"10.13-1. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün fərdi icazə almaq və ya onun müddətini uzatmaq məqsədi ilə müraciət etmiş, lakin rədd cavabı almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.13-2. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazəsi ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.13-3. Azərbaycan Respublikasının ərazisində əcnəbi işçi qüvvəsini cəlb etmək və ondan istifadə etmək üçün icazə almaq məqsədi ilə müraciət etmiş, lakin rədd cavabı almış hüquqi və fiziki şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;".

2. 10.16-cı bənd, 11.5.1-ci və 11.5.2-ci yarımbəndlər ləğv edilsin.

3. Aşağıdakı məzmunda 11.5.6-cı yarımbənd əlavə edilsin:

"11.5.6. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazələrin verilməsi və onların müddətinin uzadılması üçün rəylər;".

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 noyabr 2011-ci il

№523

"Respublika" qəzetinin 22 noyabr 2011-ci il tarixli 251 (4255) nömrəli sayında dərc edilmişdir.